İPƏK YOLU, No.1, 2023, səh.159-165

# TARİX

## AZƏRBAYCAN RESPUBLİKASININ TÜRK DÖVLƏTLƏRİ BİRLİYİ YARATMAQ SİYASƏTİ: HEYDƏR ƏLİYEVDƏN İLHAM ƏLİYEVƏ

**Yaqub Mahmudov**

Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
e-mail: yagubmakhmudov@gmail.com

**Xülasə**. Məqalədə Türk xalqları ilə qarşılıqlı əlaqələrin genişləndirilməsi və Türk Dövlətləri Birliyi yaradılması Azərbaycan Respublikası xarici siyasətinin prioritet istiqamətlərindən biri kimi tədqiq olunur. Göstərilir ki, Türk dünyası ilə geniş qarşılıqlı əlaqələr qurulması və Türk Dövlətləri Birliyinin əsasının qoyulması strateji istiqamət kimi Ulu Öndər Heydər Əliyev tərəfindən irəli sürülmüşdür. Prezident İlham Əliyev bu mühüm tarixi vəzifənin həyata keçirilməsində Azərbaycan Respublikasının fəal rol oynamasını təmin etmişdir.

**Açar sözlər**: Türk dünyası, Türk Dövlətləri Birliyi, iqtisadi və hərbi-siyasi münasibətlər, Heydər Əliyev, İlham Əliyev.

## THE POLICY OF THE REPUBLIC OF AZERBAIJAN TO CREATE A UNION OF TURKIC STATES: FROM HEYDAR ALIYEV TO ILHAM ALIYEV

**Yagub Mahmudov**
*Baku State University, Baku, Azerbaijan*

**Abstract**. The article examines the expansion of mutual relations with the Turkic peoples and the establishment of the Union of Turkic States as one of the priority directions of the foreign policy of the Republic of Azerbaijan. It is shown that the establishment of extensive mutual relations with the Turkic world and the foundation of the Union of Turkic States were put forward by Great Leader Heydar Aliyev as a strategic direction. President Ilham Aliyev has ensured that the Republic of Azerbaijan plays an active role in the implementation of this important historical task.
**Keywords**: Turkic World, Union of Turkic States, economic and military-political relations, Heydar Aliyev, Ilham Aliyev.

## ПОЛИТИКА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ ПО СОЗДАНИЮ СОЮЗА ТЮРКСКИХ ГОСУДАРСТВ: ОТ ГЕЙДАРА АЛИЕВА ДО ИЛЬХАМА АЛИЕВА

**Ягуб Махмудов**
*Бакинский Государственный Университет, Баку, Азербайджан*

**Резюме.** В статье рассматривается расширение взаимоотношений с тюркскими народами и создание Союза тюркских государств как одно из приоритетных направлений внешней политики Азербайджанской Республики. Показано, что установление широких взаимоотношений с тюркским миром и создание Союза тюркских государств были выдвинуты Великим лидером Гейдаром Алиевым в качестве стратегического направления. Президент Ильхам Алиев обеспечил активное участие Азербайджанской Республики в реализации этой важной исторической задачи.
**Ключевые слова:** Тюркский Мир, Союз Тюркских Государств, экономические и военно-политические отношения, Гейдар Алиев, Ильхам Алиев.

Türk xalqları ilə qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi və Türk Dövlətləri Birliyinin yaradılması Azərbaycan Respublikası xarici siyasətinin prioritet istiqamətlərindən biridir.

Azərbaycanın xarici siyasətində dünyanın türk xalqları ilə geniş qarşılıqlı əlaqələr qurulması və Türk Dövlətləri Birliyinin yaradılmasının strateji istiqamət kimi formalaşdırılmasının əsasını Ulu Öndər Heydər Əliyev qoymuşdur. Türk dünyasının dahi oğlu Heydər Əliyev ümumdünya tarixi inkişaf prosesinin mahir bilicisi olmaqla türk xalqlarının tarixi keçmişi ilə bağlı zəngin məlumata malik idi.

Sovet hakimiyyəti illərində kommunist rejimi təhlükəsizlik orqanlarının fəaliyyəti ilə dərindən tanış olması, Sovet İttifaqının rəhbərlərindən biri kimi bu dövlətin türk-müsəlman xalqları ilə bağlı yeritdiyi milli-dini ayrı-seçkilik siyasətinin şahidi olması və olduqca çətin şəraitdə buna qarşı ardıcıl mübarizə aparması Ulu Öndərdə gələcəkdə türk xalqlarının vahid cəbhədə birləşdirilməsi ideyasının formalaşmasında mühüm rol oynamışdır.

Sovet hakimiyyətinin ən qüdrətli çağında xüsusi cəsarət nümayiş etdirərək Azərbaycan SSR-in Dövlət Təhlükəsizliyi Komitəsində azərbaycanlıların işə cəlb edilməsi, Kremlin anti-Azərbaycan siyasətinə qarşı açıq mübarizə apardığı üçün Moskvaya aparılıb qətlə yetirilmiş Nəriman Nərimanova Bakıda və Ulyanovskda abidələr ucaltdırması, repressiya qurbanı böyük Hüseyn Cavidin cəsədinin qalıqlarının Sibirdən Vətənə gətirtdirilməsi, Azərbaycanın görkəmli ziyalılarının DTK-nın təqiblərindən qoruması, Sov.İKP MK Siyasi Bürosunun üzvü olarkən Mərkəzi Asiyanın türk xalqlarına və onların liderlərinə qarşı törədilən haqsızlıqlara qarşı mübarizə aparması və digər çoxsaylı faktlar Heydər Əliyevin ümumtürk tarixinin gələcəyi ilə bağlı böyük planlara malik olduğundan xəbər verirdi.

Dahi şəxsiyyət müstəqil Azərbaycan Respublikasının Prezidenti kimi fəaliyyətə başlayarkən Türk dünyası ilə bağlı strateji planlarının bilavasitə icrasına başladı. Qardaş Türkiyə Cümhuriyyəti və yenicə müstəqillik qazanmış Mərkəzi Asiya türk respublikaları ilə tarixi qardaşlıq əlaqələrinin genişləndirilməsi onun xarici siyasət strategiyasının prioritet istiqamətini təşkil edirdi. Qüdrətli türk hökmdarlarının qılınc gücünə həyata keçirə bilmədikləri tarixi vəzifəni – türk dünyasını birləşdirmək planlarını Heydər Əliyev özünün zəngin dövlətçilik təcrübəsinə əsaslanan müdrik və uzaqgörən xarici siyasət strategiyası sayəsində reallığa çevirmək yolunu tutdu. Və bu müqəddəs məqsədinə yetmək üçün ağlasığmaz çətinlikləri dəf etməli oldu.

Tarixi torpaqlarımızı Gülüstanda (1813) və Türkmənçayda (1828) öz aralarında bölüşdürmüş şimal və cənub qonşularımız müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanın şimala və cənuba doğru nəfəs yollarını kəsməkdə olduğu çox mürəkkəb tarixi şəraitdə Heydər Əliyev Şərq-Qərb dəhlizinin açılması kimi çox çətin bir tarixi vəzifəni qarşısına məqsəd qoydu. Dahi şəxsiyyət uzaq gələcəyə istiqamətlənmiş bu siyasətlə müstəqil Azərbaycan dövlətinin təhlükəsizliyini təmin etməklə yanaşı, həm də Avropa-Asiya qarşılıqlı əlaqələri tarixinin yeni səhifəsini açdı. Ulu Öndərin bu xarici siyasət strategiyasının əsasında onun Dünya Türk Birliyinin yaradılması planları dururdu. Lakin dahi şəxsiyyət hələlik öz siyasi planlarını bəyan etmədi. Və iqtisadi maraqları önə çıxartdı. Ulu öndər, hətta həyatı bahasına başa gələ biləcək ağır maneələrin və sui-qəsdlərin üzərindən keçərək 1994-cü il sentyabrın 20-də dünyanın 7

ölkəsini təmsil edən 11 nəhəng beynəlxalq neft şirkəti ilə Xəzərin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" neft yataqlarının və "Günəşli" neft yatağının bir hissəsinin müştərək işlənməsi və pay bölgüsü haqqında **"Əsrin müqaviləsi"ni** imzalamağa nail oldu. Hələ Xəzərin təki və səthinin sahil dövlətləri arasında bölünməsi barədə ümumi razılığın olmadığı çox mürəkkəb tarixi şəraitdə bu müqavilənin bağlanması Heydər Əliyev siyasətinin misilsiz uğuru, həm də dünya diplomatiya tarixinin çox nadir hadisəsi idi.

"Əsrin müqaviləsi"nə əsasən Xəzər nefti dünya bazarlarına Bakı-Novorossiysk, Bakı-Supsa və Bakı-Tbilisi-Ceyhan neft kəmərləri vasitəsilə ixrac olunmalı idi. Lakin Ulu Öndərin əsas niyyəti Azərbaycan neftinin dünya bazarlarına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri ilə çıxarmaq, bununla da həm Türkiyə Cümhuriyyətinin iqtisadi cəhətdən daha da güclənməsinə təkan vermək, həm də qardaş ölkənin dünya meydanındakı önəmini daha da artırılmasını təmin etmək idi. Bakı neftinin dünya bazarlarına Türkiyə vas itəsilə çıxarılması ilə heç cür razılaşmaq istəməyən çox təsirli beynəlxalq güclərin ***"**kağız üzərində kəmər"* və ya *"əfsanə"* adlandırdıqları bu layihənin reallaşdırılması üçün daha siyasətçi olduqca ağır maneələri dəf etməli oldu.

Bu işdə Ulu Öndərin ən yaxın silahdaşı İlham Əliyev çox mühüm rol oynadı. 2002-ci ildə, nəhayət Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin təməli qoyuldu.

Bununla, həm də, bu gün dünya siyasətində mühüm reallığa çevrilən Türk Dövlətləri Birliyinin də təməli qoyulmuş oldu. Bu ümumtürk tarixində dahi Heydər Əliyevin misilsiz tarixi xidməti idi.

2005-ci il mayın 25-də **1768** kilometr uzunluğunda olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin açılışı oldu. *"Əfsanə"* reallığa çevrildi.

Dahi dövlət xadiminin "Əsrin müqaviləsi"ni imzalayarkən uzaq gələcək üçün müəyyən etdiyi strateji hədəf bu müqaviləni gələcəkdə Türk dünyasını birləşdirmək üçün təsirli iqtisadi əməkdaşlıq vasitəsinə çevirmək idi. Odur ki, göstərilən tarixi müqaviləninm imzalanmasından heç bir il də keçməmiş, 1995-ci il aprelin 12-də elə həmin "Gülüstan" sarayında Ulu Öndərin təşəbbüsü ilə Azərbaycan və Türkiyə respublikaları arasında neft sahəsinə əməkdaşlığa dair ayrıca bir sifariş də imzalandı. Sazişə əsasən dövlətimiz "Əsrin müqaviləsi"ndə ölkəmiz üçün ayrılmış **20 faiz paydan 5 faizini qardaş ölkəyə güzəştə getdi.** Beləliklə, "Əsrin müqaviləsi"nə əsasən 1,75 faiz paya sahib olan Türkiyə Cümhuriyyətinin Xəzərin karbohidrogen ehtiyatlarından istifadə olunmasında mövqeyi daha da gücləndirildi. Elə bunu nəzərə alaraq, Heydər Əliyev sazişin imzalanması mərasimində bəyan etdi: "Bu gün biz sazişi imzaladıq. Güman edirik ki, burada Türkiyə vəsaitinin Azərbaycan neftinin çıxarılmasına qoyulması və Türkiyənin bu müqavilədə fəal iştirak etməsi iqtisadi cəhətdən həm Azərbaycan, həm də Türkiyə üçün böyük əhəmiyyətə malikdir. **Ancaq bunun mənəvi əhəmiyyəti, ölkələrimizin bu günü və gələcəyi üçün, dostluq və qardaşlıq əlaqələrimizin möhkəmlənməsi və inkişafı üçün qiyməti əvəzsizdir. Güman edirəm ki, bu da indi imzaladığımız sazişin əsasını təşkil edir".**

“Əsrin müqaviləsi”nin imzalanmasından sonra Heydər Əliyev Şərq-Qərb dəhlizinin açılması və Azərbaycanın Avropa-Asiya qarşılıqlı əlaqələrində əsas əlaqələndirici nəqliyyat qovşağına çevrilməsini dövlətimizin xarici siyasətində strateji istiqamətə çevirdi. Dövlətimizə qarşı şimal və cənub qonşularımızın iqtisadi və hərbi-siyasi blokada yaratmaq siyasətinə qarşı Şərq və Qərb istiqamətlərində hərtərəfli geniş qarşılıqlı əlaqələr yaratmaq xətti xarici siyasətimizin əsasını təşkil etdi. Təcrübəli siyasətçi, həm ABŞ başda olmaqla qərb dövlətləri ilə, həm də Mərkəzi Asiya və Uzaq Şərq ölkələri ilə əlaqələri genişləndirmək üçün çoxsaylı təsirli tədbirlər gördü.

Ulu Öndərin ABŞ və Avropa dövlətləri, nüfuzlu beynəlxalq təşkilatlar, Mərkəzi Asiya türk cümhuriyyətləri, Çin və digər şərq ölkələri ilə yorulmadan apardığı danışıqlar çox keçmədən bəhrəsini verdi.

1998-ci il sentyabrın 7-8-də Bakıda 9 ölkənin – Azərbaycan, Türkiyə, Özbəkistan, Qırğızıstan, Gürcüstan, Ukrayna, Moldova, Rumıniya və Bolqarıstanın dövlət başçıları, 13 beynəlxalq təşkilat və 32 dövlətin nümayəndə heyətlərinin iştirakı ilə tarixi İpək Yolunun bərpasına həsr olunmuş beynəlxalq konfrans keçirildi. Konfransın yekununda Avropa-Qafqaz-Asiya beynəlxalq nəqliyyat dəhlizinin inkişafı haqqında “Əsas Çoxtərəfli Saziş” imzalandı və Bakı Bəyannaməsi qəbul edildi. Konfransda, eyni zamanda göstərilən layihənin gerçəkləşdirilməsi üçün fəaliyyət göstərəcək Hökumətlərarası Komissiyanın Daimi Katibliyinin Bakı şəhərində yerləşdirilməsi qərara alındı. 2001-ci il fevralın 21-də Daimi Katibliyin açılış mərasimi keçirildi.

Tarixi İpək yolunun bərpasına həsr olunmuş 1998-ci il beynəlxalq Bakı konfransı, eyni zamanda Türk Dövlətləri Birliyinin yaradılmasına yönəlmiş Heydər Əliyev xarici siyasətinin növbəti böyük qələbəsi idi. Beləliklə, Ulu Öndər müstəqilliyini yenicə bərpa etmiş Azərbaycan Respublikasını həm iqtisadi və hərbi-siyasi blokadaya salınmaq təhlükəsindən xilas etdi, həm də yaxın gələcəkdə Türk Dövlətləri Birliyinin yaradılması üçün daha bir uğurlu addım atdı. Dahi rəhbər qarşısına qoyduğu tarixi məqsədə yetişmək üçün konkret icra mexanizmini fəaliyyətə başlatdı.

1997-ci ildə Azərbaycan neftinin Bakı-Novorossiysk kəməri ilə Qara dənizə ixrac olunmasına başlanıldı. 1999-cu ildə Bakı-Supsa neft kəmərinin inşası başa çatdırıldı.

Heydər Əliyevin ən yaxın silahdaşı və siyasi varisi Prezident İlham Əliyev dünya meydanında sürətlə gedən dəyişiklikləri yaradıcılıqla nəzərə alaraq Ulu Öndərin başladığı tarixi vəzifənin həyata keçirilməsində böyük uğurlara imza atdı. Təməli 2002-ci ildə Ulu Öndər tərəfindən qoyulmuş Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşası başa çatdırıldı və 2005-ci il mayın 25-də açılış mərasimi keçirildi. 2006-cı ildən Azərbaycan neftinin Türkiyənin Ceyhan limanından dünya bazarlarına ixracına başlandı. Bu Xəzər regionunun, o cümlədən Mərkəzi Asiya türk respublikalarının Türkiyə vasitəsilə dünya bazarlarına çıxması tarixinin başlandığı çox mühüm tarixi hadisə idi.

Prezident İlham Əliyev Türk dövlətləri arasında birliyin yaradılmasında mühüm rol oynayacaq tarixi İpək Yolunun bərpası üçün olduqca mühüm tədbirlər həyata keçirdi. Ölkə başçısının təşəbbüsü ilə 2007-ci il fevralın 7-də Tbilisidə Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi barədə Saziş imzalandı. Azərbaycan Prezidenti İpək Yolu layihəsinin beynəlxalq miqyasda uğurunu təmin etmək məqsədilə Çinə səfər etdi. Dövlət başçısının Çin Xalq Respublikası hökuməti ilə apardığı danışıqlar nəticəsində 2015-ci ilin dekabrında iki ölkə arasında "İpək Yolu İqtisadi kəməri"nin yaradılmasının birgə təşviq olunması barədə Qarşılıqlı Anlaşma Memorandumu imzalandı. Bununla Azərbaycan Çinin təşəbbüsü ilə reallaşdırılması nəzərdə tutulan "İpək Yolu İqtisadi Kəməri" layihəsinin də iştirakçısına çevrildi. Bu dövlətimizin başçısının çox mühüm diplomatik uğuru idi. Çünki yuxarıda göstərilən Memoranduma əsasən, faktiki olaraq, Çin Xalq Respublikası da tarixi İpək Yolunun bərpası layihəsinə qoşulmuş olurdu.

2017-ci il oktyabrın 30-da Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verildi. Bununla Trans-Asiya və Trans-Avropa dəmir yolu şəbəkələri birləşdirildi. Beləliklə, Tarixi İpək Yolu dəmir yolu vasitəsilə bərpa olundu.

Çindən başlayaraq, qədim İpək Yolu üzərində olan ölkələrin, o cümlədən Mərkəzi Asiya ölkələrinin – Qazaxıstan, Türkmənistan, Özbəkistan, Qırğızıstan, Tacikistan və Əfqanıstanın Avropa bazarları ilə birbaşa dəmir yolu əlaqəsi təmin olundu. Bu, eyni zamanda, Türk dünyasının dəmir yolu vasitəsilə birləşdirilməsi demək idi. Ölkəni Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat qovşağına çevirmək siyasəti yeridən dövlət başçımız Bakının Ələt qəsəbəsində Azad Ticarət Zonasının yaradılması barədə xüsusi əhəmiyyəti olan göstəriş verdi.

Böyük İpək Yolunun dirçəldilməsi siyasətini yeridən Azərbaycan Respublikası, parallel olaraq, qardaş Türkiyə Cümhuriyyəti ilə birlikdə Türk Dövlətləri Birliyinin yaradılması üçün də mühüm tədbirlər həyata keçirdi. Mərkəzi Asiyanın qardaş türk respublikaları ilə, həmçinin Türk Dünyası ilə eyni coğrafi məkanda olan Tacikistanla intensiv diplomatik danışıqlar aparıldı və hərtərəfli qarşılıqlı iqtisadi və hərbi-siyasi münasibətlərin inkişaf etdirilməsi diqqət mərkəzində saxlanıldı. Prezident İlham Əliyev bu mühüm tarixi vəzifənin həyata keçirilməsində Azərbaycan Respublikasının fəal rol oynamasını təmin etdi.

Yeri gəlmişkən Türk Dövlətləri Birliyinin yaradılmasında 1992-ci ildən başlayaraq vaxtaşırı keçirilən Türk dövlətləri başçılarının zirvə görüşləri mühüm tarixi zəmin hazırladı. Bu görüşlər içərisində 2009-cu il sentyabrın 3-də Naxçıvanda keçirilmiş Zirvə toplantısı xüsusi yer tutur. Azərbaycan Prezidentinin təşəbbüsü ilə məhz Naxçıvanda baş tutmuş bu zirvə görüşündə türk dövlətləri başçılarının diqqəti bütün türk dünyasını parçalayan Zəngəzur probleminə cəlb edildi. Azərbaycanın dövlət başçısı zirvə toplantısında bəyan etdi: "Naxçıvan, eyni zamanda, Azərbaycanın yeganə bölgəsidir ki, Türkiyə ilə həmsərhəddir. Vaxtilə Azərbaycanın tarixi torpağı, əzəli torpağı Zəngəzur bölgəsinin Azərbaycandan ayırıb Ermənistana birləşdirilməsi demək olar ki, böyük türk dünyasını coğrafi baxımdan parçaladı. Yəni türk dünyasının vahid bir ailə kimi, vahid bir qüvvə kimi fəaliyyəti on illiklər ərzində

dayandırılmışdır. Ancaq biz bu gün qəbul edilmiş qərarlarla, atılmış addımlarla bu bağlantını daha da gücləndiririk.

Düzdür, coğrafi baxımdan bu gün bizim aramızda Azərbaycanın indi Ermənistanın tərkibində olan qədim diyarı - Zəngəzur bölgəsi yerləşir. Ancaq mənəvi baxımdan, siyasi baxımdan və iqtisadi layihələrin həyata keçirilməsi nəticəsində türk dünyasının birləşməsi və bir qüvvə kimi fəaliyyət göstərməsi bu gün reallıqdır, həqiqətdir. Bu həqiqəti biz yaradırıq və bizdən asılıdır ki, bu birlik davam etsin, güclənsin və bizim xalqlarımıza yeni imkanlar yaratsın".

Türk dövlətləri başçılarının IX Naxçıvan zirvə görüşü tarixi qərarlar qəbul etdi: **Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının** yaradılması haqqında **Naxçıvan Sazişi** imzalandı və zirvə görüşünün yekunu olaraq **Naxçıvan Bəyannaməsi** qəbul olundu. Beləliklə, Azərbaycan Respublikasının xarici siyasətində prioritet istiqamətlərdən biri olan Türk Dövlətləri Birliyinin yaradılması sahəsində çox mühüm addım atıldı. Zaman keçdikcə *Türkdilli ölkələrin Əməkdaşlıq Şurası* **Türk Dövlətləri Təşkilatı** kimi formalaşdı.

Türk Dövlətləri Təşkilatının yaradılmasında mühüm xidmətləri olan və erməni-faşist işğalçılarının Azərbaycan torpaqlarından qovulub çıxarılmasına nail olan Azərbaycanın Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev 2021-ci ildə Türk dövlətləri başçılarının İstanbul zirvə görüşündə Türk Dövlətləri Təşkilatının qərarına əsasən Türk dünyasının Ali Ordeni ilə təltif olundu.

Erməni-faşist işğalçılarına qarşı 44 günlük Vətən müharibəsində ölkə Prezidenti və Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının tarixi qələbəsi nəticəsində Cənubi Qafqazın beynəlxalq münasibətlərində əsaslı dəyişiklik baş verdi. Azərbaycan Respublikası və qardaş Türkiyə Cümhuriyyəti bir millətin iki dövləti olaraq Cənubi Qafqazda və bütün regionda sülhün və əminamanlığın təmin olunmasında həlledici rol oynayır. Türk Dövlətləri Təşkilatı indi beynəlxalq münasibətlərdə real söz sahibinə çevrilmişdir. Ukraynaya qarşı ədalətsiz müharibə nəticəsində Rusiya Federasiyasının Avropa ölkələri tərəfindən beynəlxalq əlaqələrdən təcrid olunması Azərbaycanla Türkiyənin dünya meydanındakı iqtisadi və hərbi-siyasi mövqeyini daha da gücləndirdi. Azərbaycan Respublikası Şərq-Qərb və Şimal-Cənub qarşılıqlı əlaqələrində mühüm nəqliyyat qovşağına çevrildi. Regionun və digər dünya dövlətlərinin xarici iqtisadi əlaqələrində mühüm rol oynayacaq Zəngəzur dəhlizinin açılması günün qarşısıalınmaz reallığına çevrilməkdədir.

Türk Dünyasının qədim Azərbaycan torpağı Zəngəzurda öz ərazi birliyinə qovuşacağı tarixi gün uzaqda deyil. Zəngəzur dəhlizinin açılması Türk Dövlətləri Təşkilatının ümumdünya tarixi inkişaf prosesindəki fəaliyyətinə güclü təkan verəcəkdir.

## Ədəbiyyat

1. Əliyev Heydər. Müstəqilliymiz əbədidir. Birinci kitab. Bakı: Azərnəşr, 1997, 612 s.
2. Əliyev Heydər. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı,1997, 136 s.

3. Əliyev İlham. İnkişaf – məqsədimizdir. Bakı: Azərnəşr, 2009, 416 s.
4. Əliyev Heydər. Qətiyyətin təntənəsi. Bakı, 1995, 846 s.
5. Azərbaycan Respublikasının tarixi. 2 cilddə. Bakı: Azərbaycan Tarixçiləri İctimai Birliyi, 2016.
6. Mahmudov Y. Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti. Bakı: "Təhsil", 2002.
7. Mahmudov Y. Heydər Əliyev ideyalarının zəfər yürüşü.
8. Mahmudov Y. Heydər Əliyev. 2 cilddə. Bakı: Turxan NPB, 2013.
9. Mahmudov Y. İlham Əliyev və Azərbaycan tarix elmi. Bakı: Turxan NPB, 2014.